# QAZANILAN QƏLƏBƏ XALQ-İQTİDAR BİRLİYİNİN TƏNTƏNƏSİDİR

**44 gün davam edən və qələbə ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, xalq-iqtidar birliyinin təntənəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi.**

Azərbaycan xalqı öz liderinin - praqmatik dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Ölkə rəhbəri yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Məhz, 18 ildə həyata keçirdiyi siyasətin nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüz birmənalı olaraq təsdiq edildi. "Qarabağ Azərbaycandır!" reallığı 44 gündə mümkünsüzü mümkün etdi. Bu ədaləti 44 gün ərzində yazan Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları bir yumruq kimi birləşərək sübut etdi ki, haqq yolunda, ədalətin, ərazi bütövlüyümüzün bərpası, müqəddəs ulu babalarımızın yaşadığı torpaq uğrunda ölümə getməyə hazırıq və 30 ilə yaxın düşmən tapdağında inləyən vətən torpaqlarını işğaldan azad etməyə qadirik.

44 gündə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu dünyaya sübut etdi ki, döyüş meydanında zəfəri tanklarla, toplarla deyil, ağılla, zəka ilə vətən sevgisi ilə, torpağa məhəbbət və bir də insan zehninin ən son nailiyyəti olan texnologiyalarla qazanmaq olar. Azərbaycan Prezidenti cənab İlham Əliyev Şuşa qalasının alınması əməliyyatını xüsusi qiymətləndirərək demişdir: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki bu əməliyyatı bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək yalnız yüngül silahlarla silahlanmış şəkildə azad ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir". Bəli, Azərbaycan ordusu misli görülməmiş rəşadət, şücaət, əsl qəhrəmanlıq, mərdlik, nümunəsi göstərərək salnamələr yaratdı. Xain, xəbis, işğalçı düşmənin 30 ilə yaxın bir dövr ərzində qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, müzəffər ordumuzun tətbiq etdiyi savaş strategiyası müasir hərb tarixinə örnək oldu.

Bu Zəfər tarixini, böyük qələbəni al-qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur", - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: "Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, ulu öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!" Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuz tərəfindən Ermənistanın məğlub edilməsi və qələbənin təmin olunması, eyni zamanda bütün dünya ictimaiyyətinə Azərbaycan xalqının haqq səsinin çatdırılmasına, əsrlər boyu davam edən erməni yalanlarının ifşasına və ən vacibi də ölkəmizin vətənpərvərliyinin, qələbə əzminin və xalq-iqtidar birliyinin nümayiş olunmasına gətirib çıxardı. Ölkə Prezidenti Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə bir daha söylədi ki, "Zəfərdən danışarkən əlbəttə ki, biz xalqımızın həmrəyliyini qeyd etməliyik. Çünki, Azərbaycan xalqı Ordumuzun arxasında dayandı, mənim arxamda dayandı, bizə inandı və tam əmin idi ki, biz tarixi Qələbə qazanacağıq və belə də oldu. Azərbaycan tarixi zəfər çaldı".

Düşmən üzərində qələbənin qazanılmasında diplomatiya sahəsindəki uğurlarımız da xüsusi rol oynadı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin döyüşlərin getdiyi bir vaxtda ermənilərə havadarlıq edən iri dövlətlərin təzyiqlərinə və xarici mətbuat nümayəndələrinin qərəzli suallarına təmkinlə, əsaslı faktlarla cavab verməsi Ermənistanla aparılan lokal müharibədə Azərbaycana uğur gətirdi. Noyabr ayının 10-da Ermənistanın kapitulyasiyasını etiraf etməsi ilə imzalanan Bəyanat ümumilikdə Azərbaycanın Ermənistan üzərində qələbəsini rəsmiləşdirdi. İmzalanan üçtərəfli bəyanata görə işğal edilmiş Kəlbəcər, Laçın və Ağdam rayonları heç bir döyüş əməliyyatı olmadan Azərbaycana təhvil verildi.

Amma, əfsuslar ki, atəşkəsin elan olunmasından sonra Ermənistanın Azərbaycanın dinc əhalisinə açıq hücum etməsi və körpəsindən tutmuş yaşlısına kimi insanları hədəfə alaraq qətlə yetirməsi düşmənin heç bir zaman terrorçu xislətindən əl çəkməyəcəyinin bariz nümunəsidir. Bu cinayət əməli bir daha sübut etdi ki, işğalçı ölkə əldə olunan razılaşmaya, imzaladığı sənədə heç vaxt əməl etmir. Bütün beynəlxalq konvensiyaları kobud şəkildə pozaraq tarixdəki alçaq və çirkin əməllərini davam etdirir. Düşünür ki, bu dəfə də yalançı hay-küyü ilə beynəlxalq ictimaiyyətə yanlış informasiyalar ötürə biləcək. Amma yanılır, dövlət başçısının bildirdiyi kimi, bu, onların taktikasıdır. Çünki onlar öyrəşiblər ki, dünya meydanında onlara daim dəstək veriləcək: "... Ancaq bugünkü dünyada, internet dövründə bunu etmək onlar üçün artıq çox çətindir. Çünki artıq qeyri-ənənəvi mətbuat vasitələri var, internet var və məlumatın çatdırılması o qədər də çətin məsələ deyil. Ona görə bu gün onlar informasiya mübarizəsində də əvvəlki mövqelərə sahib deyillər. Biz isə haqq yolundayıq. Həm beynəlxalq hüquq baxımından, həm tarixi ədalət baxımından biz haqlıyıq. Biz öz torpağımızdayıq, öz torpağımızda vuruşuruq. Erməni əsgəri bizim torpaqlarımızdan çıxarsa, bu münaqişəyə də son qoyulacaq".

Azərbaycan xalqı heç zaman işğalla barışmadı və işğalçının məkrli planlarla yurdumuzdan qoparmağa çalışdığı tarixi əzəli torpaqlarını geri qaytarmaq üçün beynəlxalq hüquq və normalar çərçivəsində mübarizə apararaq qalib dövlətə çevrildi. Ötən xeyli müddət ərzində səbrimizi düzgün dəyərləndirməyi, sülh uğrunda həyata keçirdiyimiz səyləri qiymətləndirməyi bacarmayan azğın düşmənə Azərbaycan bu gün layiqli yerini göstərdi. Ermənistanın daxilindəki hazırkı biabırçı mənzərə və gərgin vəziyyət, Paşinyana qarşı artan etirazlar, bununla müqayisədə Ali Baş Komandan, Prezident İlham Əliyevin fəxrlə bəyannaməyə imza atması, Azərbaycan xalqının əhvali-ruhiyyəsi, bayram sevinci kimin qalib, kimin isə məğlub olduğunu aydın şəkildə nümayiş etdirir.

"Mən hər bir azərbaycanlının Prezidentiyəm!", - deyən dövlətimizin müdrik başçısı dediklərini dönə-dönə əməli işlərlə təsdiqləyir. Odur ki, xalq da həmişə öz dövlətini, öz liderini bütün işlərdə dəstəkləyir. Başqa sözlə, şad günlərdə də, çətin vaxtlarda da lider öz xalqının, xalq da öz liderinin yanındadır. Xalqın dəstəyi dövlətin tükənməz gücünün mənbəyidir. Yaşanan hadisələr bir daha göstərdi ki, xalqımız ağır günlərdə bacarıqla bir nöqtəyə vura bilir. Praqmatik dövlət başçısı, ölkə Prezidenti cənab İlham Əliyev haqlı olaraq xalq-iqtidar birliyini Azərbaycanda sabitliyin, inkişafın əsas şərti kimi dəyərləndirmişdir. Siyasətdə və cəbhədə, diplomatiyada və hərbi strategiyada üstünlük qazanmış ölkə Prezidenti cənab İlham Əliyev bu zəfərin müəllifidir.

**Zaur MƏMMƏDOV,**
**Daşkəsən Rayon Təhsil Şöbəsinin müdiri.**

Respublika.- 2021.- 13 noyabr.- S.9.